**Pedaqoji Universitetin Xəbərləri.** Riyaziyyat və təbiət elmləri seriyası – 2025, C. 73, №3, s. 74-76
**Transactions of Pedagogical University.** Series of mathematics and natural sciences – 2025, V. 73, №3, pp. 74-76

*UOT 35.078.3*

***R.M.Əmrahov, İ.Ə.Məmmədova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*rafiq.amrahov.60@bk.ru*
*irada_mammadova@mail.ru*

# TORPAĞIN QAYSAĞI İLƏ EKOLOJİ MÜBARİZƏ

https://doi.org/10.30546/2520-2049.73.3.2025.029

***Açar sözlər:*** *torpaq, qaysaq, toxum*

Qaysaqdan əmələgələn torpaq çatları bitki köklərini mexaniki zədələyərək, onların inkişafını zəiflədir. Qaysaq quruyan torpağın üst qatı bitkilərini kök bağlarından o dərəcədə sıxır ki, hətta onların tələf olmasına səbəb olur. Qaysaq əmələgəlməsinin əsas səbəbi torpağın tozlanması, yəni onun strukturasının pozulması və əsasən xırda hissəciklərdən ibarət olmasıdır.

Əkindən qabaq sahələrdən kəsimlər götürülməli, əkilən bitkilərə uyğun sahələr seçilməli, növbəli əkinlər tətbiq edilsin ki, bu da qaysağın əmələ gəlməsinin qarşısını alır. Hər suvarmadan sonra qaysağa qarşı mübarizə aparılmalıdır.

***Р.М.Амрахов, И.А.Мамедова***

# ЭКОЛОГИЧЕСКИЙ КОНТРОЛЬ ЗА ОБРАЗОВАНИЕМ ПОЧВЕННОЙ КОРКИ

***Ключевые слова:*** *почва, корка, семя*

Трещины в почве, возникающие вследствие засухи, механически повреждают корни растений, ослабляя их развитие. Пересыхающий верхний слой почвы настолько выдавливает растения из корневой системы, что может даже привести к их гибели. Основной причиной образования корки является пыление почвы, то есть нарушение её структуры и образование преимущественно мелких частиц.

Перед посадкой необходимо убрать черенки с полей, выбрать подходящие участки для посадки культур и соблюдать севооборот, предотвращающий развитие парши. Борьбу с паршой следует проводить после каждого полива.

***R.M.Amrahov, I.A.Mammadova***

## ECOLOGICAL CONTROL OF SOIL CRUST

***Keywords:*** *soil, crust, seed*

Soil cracks caused by crusting mechanically damage plant roots, weakening their development. The drying topsoil squeezes plants from their root systems to such an extent that it even causes them to die. The main reason for crusting is the soil's dusting, that is, its structure is disrupted and it consists mainly of small particles.

Before planting, cuttings should be taken from the fields, suitable areas should be selected for the crops to be planted, and crop rotation should be applied, which will prevent the formation of scab. Scab control should be carried out after each irrigation.

Kənd təsərrüfatı bitkilərinin becərilməsində aqrotexniki qaydada qulluq vacib məsələlərdən biridir. Torpaqşünaslıqda mədəni bitkilərə mənfi təsir göstərən torpağın qaysağıdır. Qaysağın əmələgəlməsi torpaq rabitəliliyi ilə əlaqədar olmasıdır.

Qaysaq torpağın üst hissəsində narın torpaq hissəciklərinin suvarma və yağışdan sonra palçığa çevrilib quruması və 3-4 sm qalınlığında qat əmələ gətirməsidir. Belə torpaqlarda rabitəlilik çox olduğundan səpilmiş toxumlar cücərib torpaq səthinə çıxa bilmir. Qaysaq alınmış cücərtilərin böyümə şəraitinidə pisləşdirir. Beləki, torpağa havanın keçməsi pisləşir, mikrobioloji proses zəifləyir və bitkilər mənimsənilə bilən qida maddələrindən korluq çəkir.

Qaysaqdan əmələ gələn torpaq çatları bitki köklərini mexaniki zədələyərək, onların inkişafını zəiflədir. Qaysaq quruyan torpağın üst qatı bitkilərini kök bağlarından o dərəcədə sıxır ki, hətta onların tələf olmasına səbəb olur. Qaysaq əmələgəlməsinin əsas səbəbi torpağın tozlanması, yəni onun strukturasının pozulması və əsasən xırda hissəciklərdən ibarət olmasıdır.

Qum və iri toz hissəcikləri 60%-dən yuxarı olan torpaqlar qaysaq əmələ gətirmir. Tərəvəz təsərrüfatlarında suvarmadan sonra yaranan qaysaq ona böyük ziyan vurur. Qaysaq olduqda, nə torpağa oksigen keçmir, nə də ondan karbon qazı havaya diffuziya etmir. Nəticədə karbon qazı torpaqda toplanıb bitkiləri kəskin surətdə zəhərləyir. Qaysaq dağıldıqdan sonra $CO_2$ qazı çıxır, yerinə oksigen daxil olur, bitkilər yaşıllaşmağa bağlayır, zəhərləmədə yanır və əksinə $CO_2$ havayaçıxıbfotosintezigücləndirir, oksigen daxil olduqda isə köklərin tənəffüsü güclənir. Qaysağa qarşı tərəvəzçilik fermer təsərrüfatlarında ciddi mübarizə aparırlar.

Torpağın üzvü gübrələrlə zənginləşdirilməsi, düzgün becərilməsi və şumlamaq, yağış və suvarmadan sonra qaysağı tez-tez dağıtmaq böyük fayda verən aqrotexniki qulluq işidir.

Torpağın qaysağı ilə mübarizədə əsas rol aqronomik tədbirlərin vaxtında yerinə yetirilməsidir. Torpağı analiz edib, ona lazım olan üzvi və mineral gübrələrlə zənginləşdirmək lazımdır ki, torpaq qurumasın, əkinlər bol məhsul versin. Əkindən qabaq sahələrdən kəsimlər götürülməli, əkilən bitkilərə uyğun sahələr seçilməli, növbəli əkinlər tətbiq edilsin ki, bu da qaysağın əmələ gəlməsinin qarşısını alır. Hər suvarmadan sonra qaysağa qarşı mübarizə aparılmalıdır.

Akademik Məmmədtağı Cəfərovun sözü ilə desək: “Ana torpaq sözüm sənədir. Anama da həmişə “sən” deyə müraciət etmişəm...” Bilirəm ulusan, ucasan “sən” deyə müraciət etməyimin səbəbi doğmalıqdan, istəməkdəndir.

Torpaq erroziyasına, qaysağa qarşı məhsul təkmilləşdirilməsi, torpağa gübrə verilməsinin elmi dəlillərə əsaslanması və onun müasir ekoloji tələblərə cavab verməsini təmin etmək lazımdır. Şair Musa Yaqub demişkən:

Torpaq müqəddəsdir, torpaq müqəddəs,
Gərək yadımızdan çıxmasın bu dərs.
O ürək kimidir! Satıla bilməz
Vətəndir, Atadır, Anadır torpaq.

Torpaq hər kəsindir, gələcək nəsillərindir. Ona görə torpağın daim qorunması kimyəvi, bioloji, radioaktiv çirklənməsinə qarşı mübarizə aparmaq lazımdır. Ona qayğı ilə yanaşılmalı, onun məhsuldar olması, münbit olması üçün erroziyadan, qaysaqdan qorumaq üçün bütün aqroptexniki tədbirlər region xüsusiyyətlərini nəzərə alaraq vaxtında aparılmalıdır.

## ƏDƏBİYYAT

1. *M.İ.Cəfərov, P.M.Quliyev.* Torpaq fondu və ondan səmərəli istifadə. Bakı, “Elm”, 1997.
2. *O. Məmmədov, S.Məmmədova, C.Şabanov.* Torpağın eroziyası və mühafizəsi. Bakı, “Elm”, 2009.
3. Torpaqşünaslıq və torpaq coğrafiyasının əsasları. Bakı, “Elm” nəşriyyatı, 2007.

Redaksiyaya daxil olub 12.05.2025